# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 204** **Bakı şəhəri, 13 iyul 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunması Qaydaları"nın təsdiq edilməsi barədə" 2005-ci il 14 iyul tarixli 136 nömrəli, "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" 2019-cu il 4 sentyabr tarixli 381 nömrəli və "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) tərəf kimi çıxış etdiyi hasilatın pay bölgüsü sazişləri üzrə rəhbər komitələrin SOCAR tərəfindən formalaşdırılması ilə bağlı bəzi məsələlər barədə" 2020-ci il 12 avqust tarixli 292 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 iyul tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 669, № 11, maddə 1076; 2006, № 1, maddə 59; 2007, № 8, maddə 854; 2009, № 10, maddə 846; 2015, № 12, maddə 1591) ilə təsdiq edilmiş "Nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunması Qayda-ları"nın 2-ci hissəsinə "Bu Qaydalar" sözlərindən sonra "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş dövlət şirkətləri və müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri istisna olmaqla," sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 sentyabr tarixli 381 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1535) ilə təsdiq edilmiş "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.8-ci bəndə "orqanlarıdır" sözündən sonra "(qurumlarıdır)" sözü əlavə edilsin;

2.2. 1.8.1-1.8.3-cü yarımbəndlərdə "və Azərbaycan Respublika-sının Dövlət Statistika Komitəsi" sözləri ", Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və idarəetməsinə verilmiş dövlət şirkətləri və müəssisələri, dövlətin payı olan təsərrüfat cəmiyyətlərinə münasibətdə Azərbaycan İnvestisiya Holdinqi" sözləri ilə əvəz edilsin;

2.3. 3.2-ci bənddə "və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ", Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və idarəetməsinə verilmiş dövlət şirkətləri və müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətlərinə münasibətdə Azərbaycan İnvestisiya Holdinqi" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) tərəf kimi çıxış etdiyi hasilatın pay bölgüsü sazişləri üzrə rəhbər komitələrin SOCAR tərəfindən formalaşdırılması ilə bağlı bəzi məsələlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 avqust tarixli 292 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1109) 1.6-cı bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Azərbaycan İnvestisiya Holdinqi".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 15 iyul.- S.5.